**ZENFIRA ASLAN**
Bakı Dövlət Universiteti
**Zahid Xəlilov23**
**zenfiraaslan@gmail.com**

# QASİM BƏY ZAKİRİN YARADICILIĞI VƏ QARABAĞ ƏDƏBİ MÜHİTİ

**Xülasə**

Məqalədə XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Qasım bəy Zakirin ədəbi irsi şairin yaradıcılığı üçün səciyyəvi olan epik poeziya və satirik şeirlər fonunda təhlil obyektinə çevrilmişdir.

Bütövlükdə Qarabağ ədəbi mühitində epik poeziyanın və satirik şeirin inkişafında Qasım bəy Zakirin xüsusi rolu diqqət mərkəzinə çəkilmişdir.

Şairin mənzum hekayələrində Əfzələddin Xaqani, Nizami Gəncəvi, Marağalı Övhədi, Məhəmməd Əmani və digər Azərbaycan ədiblərinin ən yaxşı ənənələrinin davam və inkişaf etdirildiyi qeyd olunmuşdur. Həmçinin Şərq ədəbiyyatı klassiklərindən, habelə qədim hind abidəsi olan «Kəlilə və Dimnə»dən də təsirləndiyi vurğulanmışdır.

Burada Qasım bəy Zakirin mənzum hekayələri mövzu baxımından təsnif olunmuş və bu müstəvidə araşdırılmışdır.

Məqalədə, eyni zamanda, Qasım bəy Zakirin satirik poeziyanın inkişafındakı xidmətləri səciyyələndirilmiş, sənətdə realizm prinsiplərinin güclənməsində, xalqın gündəlik həyatı, güzəranı ilə bağlı problemlərin şeirə gəlişi üçün imkanlar yaradılmasında bu əsərlərin rolu vurğulanmışdır.

Məqalədə şairin yaradıcılığı təcrid olunmuş şəkildə deyil, mənsub olduğu ədəbi mühitin fonunda, digər sənətkarlarla müqayisəli kontekstdə təqdim olunmuşdur.

Tədqiqat prosesində mövzu ilə bağlı yazılmış ən mühüm elmi-nəzəri qaynaqlara istinad olunmuşdur.

**Açar sözlər**: Qasım bəy Zakir, Qarabağ, XIX əsr, ədəbi mühit, satira, epik poeziya

Qarabağ ədəbi mühitində epik poeziyanın və satirik şeirin inkişafında Qasım bəy Zakirin xüsusi rolu olmuşdur. İndiyədək şairin yaradıcılığı müxtəlif aspektlərdən təhlilə cəlb olunsa da, onun bağlı olduğu XIX əsr Qarabağ ədəbi mühiti kontekstində dəyərləndirilməmişdir.

Şairin mənzum hekayələrində öz dövrünün və mühitinin bu və ya digər hadisələri, səciyyəvi məqamları təcəssümünü tapmışdır. Janrın poetikası baxımından Zakirin mənzum hekayələri didaktik ruhu, yığcamlığı, lakonikliyi, müdrik kəlamlarla və aforizmlərlə müşayiət olunması, süjetin sadəliyi, hadisələrin gözlənilməz finalla tamamlanması, dialoqlardan istifadə üsulu, kompozisiya rəngarəngliyi və s. özünəməxsus keyfiyyətlərlə yoğrulduğundan bu əsərlər hələ şairin sağlığında ədəbi-nəzəri fikrin diqqətini çəkmişdir. Ümumiyyətlə, Zakirin mənzum hekayələrində Əfzələddin Xaqani, Nizami Gəncəvi, Marağalı Övhədi, Məhəmməd Əmani və klassik Azərbaycan şairlərinin ən yaxşı ənənələri davam və inkişaf etdirilmişdir. Zakir Azərbaycan şairlərilə yanaşı, həmçinin Şərq ədəbiyyatı klassiklərindən, habelə qədim hind abidəsi olan «Kəlilə və Dimnə»dən də təsirlənmişdir.

Qasım bəy Zakirin yaradıcılığı, eyni zamanda, satirik poeziyanın inkişafı ilə səciyyələnməkdədir. Satirik poeziyanın inikişafı sənətdə realizm prinsiplərini gücləndirmiş, xalqın gündəlik həyatı, güzəranı ilə bağlı problemlərin şeirə gəlişi üçün imkanlar yaratmışdır. Məlum olduğu kimi, «...bizim nə şifahi ədəbiyyatımızda, nə də yazılı ədəbiyyatımızda satirik

motiv heç zaman zəifləməmişdir» (3, s.358). Məhz bu səbəbdəndir ki, Qarabağda yazıb-yaradan sənətkarların mühüm bir qismi öz poetik düşüncələrini satirik-yumoristik formada əks etdirməyə çalışmışlar. Bu da təsadüfi deyildi. Bəlli olduğu kimi, «XIX əsr Azərbaycan poeziyasının əsas qollarından biri də realist satiradır. Ölkənin sosial-iqtisadi həyatında ictimai və milli zülmə, müstəmləkəçilik siyasətinə qarşı etiraz, mövcud vəziyyətdən narazılıq əhvali-ruhiyyəsinin qüvvətlənməsi və xalq azadlıq hərəkatının genişlənməsi - bədii ədəbiyyatda kəskin, açıq tənqidi pafosun meydana gəlməsi ilə nəticələnir; əsrlər boyu gah dəhşətli faciələrlə ağlayan, gah da azadlıq həsrəti ilə alışıb yanan, gözəllik və məhəbbəti tərənnum edən, qəhrəmanlara və hökmdarlara mədhiyyə oxuyan, təbiətə, bahara, gülə və bülbülə nəğmələr qoşan bəşəriyyət indi bədii təfəkküründə tənqidə geniş yer verir, «həyat haqqında amansızcasına açıq danışan» əsərlər yazırdılar» (7, s.19). Həmçinin qeyd olunmalıdır ki, XIX əsrdə sistemli şəkildə «Çarizmin köçürmə tədbirləri, məmurların qanunsuz əməllərindən doğan hərc-mərclik, dövlətin yerlərdə xanları, bəyləri, ruhaniləri özünün dayağına çevirib kəndli hüquqlarını qəsb etməsi və zülmü artırması, cəhalət və nadanlığa rəvac verməsi, bütün bunlara qarşı etrazların zorakılıqla susdurulması və s. poeziyada satiranın güclənmsinə rəvac verdi» (9, s.27).

## Qasım bəy Zakirin mənzum hekayələri

Qasım bəy Zakirin mənzum hekayələrini mümxtəlif şəkildə təsnif etmək mümkündür. İndiyədək bu istiqamətdə müəyyən təhlillər aparılmışdır. Belə ki, görkəmli ədəbiyyatşünas Feyzulla Qasımzadə Qasım bəy Zakirin mənzum hekayələrini məzmununa görə üç yerə bölmüşdür:

1) Məhəbbət mövzusunda yazılan hekayələr: «Məlikzadə və Şahsənəm», «Əmirzadə, məşuq və cavan aşıq», «Aşiqin təam bişirməyi», «Aşiq və məşuq haqqında», «Zövci-axər».

2) Əxlaqi və tərbiyəvi hekayələr: «Tərlanlar və elçilər», «Dəvəsi itən kəs».

3) Satirik-tərbiyəvi mahiyyət daşıyan hekayələr: «Dərviş ilə qız», «Həyasız dərviş», «Əxlaqsız qazı», «Bihəya türk», «Xalqa vəz deyən, özü fisqü-fücurdan çıxan biəməl alim» (4, s.288).

Əlbəttə, bu bölgü sırf şərti səciyyə daşıyır və sadəcə olaraq şairin mənzumələrinin sistemli təqdimi məramına xidmət edir. Lakin fikrimizcə, Qasım bəy Zakirin satirik üslubda qələmə aldığı mənzum hekayələri mövzu və ideya baxımından daha aktual səciyyə daşımaqdadır. Ona görə də şairin bu səpkidə yazdığı əsərlərinin daha əhatəli şəkildə dəyərləndirilməsinə ehtiyac vardır.

Qasım bəy Zakirin «Həyasız dərviş və ismətli qadın», «Həyasız dərvişlər haqqında», «Xalqa vəz deyən, özü fisqü-fücurdan çıxan biəməl alim» kimi mənzum hekayələrində əsas tənqid hədəfi kimi din və şəriət xadimləri seçilmişdir.

«Həyasız dərviş və ismətli qadın» hekayəsində şair çaydan su gətirən təmiz, namuslu bir qızla həyasız dərvişi qarşılaşdırmış, təsvir etdiyi əhvalat fonunda bir çox «mənəviyyat sahibləri»nin əslində göründüyü kimi olmadıqlarını vurğulamışdır. Belə ki, əsərdə yoldan keçən bir dərviş susuzluğunu bəhanə gətirərək qızdan su istəyərkən qız onu «müqəddəs» şəxs hesab etdiyi üçün heç bir şübhəyə düşmədən bardağı dərvişə təqdim edir. Lakin bu məqamda dərviş ətrafda kimsənin olmadığından sui istifadə edərək qızın namusuna toxunmaq istəyir. Ancaq qız həyasız dərvişin bu istəyini qəzəb və nifrətlə rədd edir (11, s.156-158).

Göründüyü kimi, hekayədə təsvir olunan əhvalat fonunda bir tərəfdən din adı ilə alver edən «dərviş»lərin mənəvi-əxlaqi eybəcərlikləri aşkarlanmış, digər tərəfdən namuslu, ismətli, cəsarətli qız və qadınların öz hüquqları uğrunda mübarizə aparmaq əzmi ifadə olunmuşdur.

Qasım bəy Zakirin dialoq şəklində qələmə alınmış «Həyasız dərviş və ismətli qadın» əsərində qaldırılan problem «Həyasız dərvişlər haqqında», hekayəsində də dolayısı ilə davam və inkişaf etdirilmişdir. Burada şair tüfeyli həyat sürənlərə, başqasının hesabına yaşayanlara, müftəxorlara özünün nifrətini ifadə etmişdir. Hekayədən hasil olan qənaətə görə, ölkədə

oğurluğun, əyriliyin, halal zəhmətə xor baxmağın əsas səbəblərindən biri tüfeyli həyat tərzi keçirən insanların gündən-günə artmasıdır.

«Həyasız dərvişlər haqqında» hekayəsinin qəhrəmanı olan yoxsul qız halal zəhmət, namuslu həyat, mənəvi təmizlik haqqında ağıllı mühakimələri ilə seçilən bir şəxsdir. O, dərvişin hansı mənəviyyat sahibi olduğunu – zəhmətsiz həyat keçirdiyini, dilənçilik etdiyini, ona-buna əl açmaqla ləyaqətini ayaqlar altına atdığını onun üzünə söyləməkdən çəkinmir. Hekayədə müəllif yoxsul qızın dili ilə dərvişin daxili aləminə işıq tutur:

Qapı-qapı töküb abi-ruyunu,
İfrata yetirib göftü-guyunu.
Gahi dəm urarsan şahi-nəfirə,
Eylərsən aləmin əhvalın tirə...
Verməyəndə qaşqabağın tökərsən,
Kiminin üstünə çomaq çəkərsən...
Elə nanü-nəmək dursun gözünə,
Biarsınız, yığılmazsız öznünə (11, s. 160).

«Həyasız dərvişlər haqqında» mənzum hekayəsinin diqqəti cəlb edən cəhətlərindən biri burada yoxsul, kimsəsiz, zəhmətkeş insanlara rəğbətlə yanaşılmasıdır. Eyni zamanda, qeyd olunmalıdır ki, Qasım bəy Zakir yoxsul təbəqənin ağır həyat tərzi keçirməsinin səbəblərinə də diqqəti yönəltmiş, xalqın amansız şəkildə istismar olunduğunu vurğulamışdır.

Şairin «Xalqa vəz deyən, özü fisqü-fücurdan çıxan biəməl alim» adlı hekayəsində təsvir olunan əhvalat fonunda bəzi ikiüzülü, riyakar şəriət xadimlərinin daxili-mənəvi simasının eybəcərlikləri üzə çıxarılmışdır. Hekayədə təsvir olunur ki, qoca bir molla hər gün minbərdən insanları paklığa, təmizliyə çağıran «vəz»lərlə çıxış edir. Zahirən xoşsima olan bu mollanın sözlərinə adamlar diqqətlə qulaq asır, onun təmiz, saf, müqəddəs bir şəxs olduğuna inanırlar.

Lakin məsələ burasındadır ki, molla xalqa tövsiyə etdiklərinə özü əməl etmir, başqalarına haram buyurduqlarına məhəl qoymur. Şair daxili ilə batini biri-birindən kəskin şəkildə fərqlənən bu şəriət xadiminə olan nifrətini bədii şəkildə ifadə etməyə çalışmışdır. Qeyd edək ki, bu və ya buna bənzər din və şəriət xadimlərinə Zakirin yaşadığı dövrdə geniş təsadüf edildiyindən şair bununla bağlı mənzum hekayə yazmağı qərara almışdır. Şair hekayənin sonunda qənaətlərini ümumiləşdirərək yazır:

Nəhayət, bir parə mollayi-biar,
Düşən yerdə dini dünyaya satar (11, s. 124).

«Əxlaqsız qazı» hekayəsi qazilərin pozğunluğu ilə bağlı bir əhvalat üzərində qurulmuşdur. Burada şair qazıların sadə, zəhmətkeş xalqın başına gətirdikləri cürbəcür fırıldaq və hiyləgər hərəkətləri aşkarlamağa, insanların gözünü açmağa çalışmışdır. Hekayədə müəllif qazılərin əxlaqsızlığına, cinayətkar hərəkətlərinə öz qəzəb və nifrətini kəskin şəkildə bildirmişdir.

Gərək bu aləmdən eyləmək həzər,
Öz yerində deyil çünki xeyrü-şər (11, s.128 ).

Qasım bəy Zakirin mənzum hekayələrinin mühüm bir qismi məhəbbət, qarşılıqlı sevgi, ailə-məişət mövzusunda qələmə alınmışdır. «Qoca kişi ilə cavan arvad» adlı mənzum hekayədə şair yaşca bərabər olmayan evliliyin törətdiyi fəsadlarına diqqəti çəkmiş, bunun ailə həyatında yaratdığı nöqsanları təsvir etmişdir. Şairin fikrincə, yaşlı, ixtiyar kişilərin özlərindən qat-qat cavan qızlarla evlənməsi sözün həqiqi mənasında böyük qəbahətdir. Hekayənin əvvəlində müəllif həyati detallarla bu cür evliliyin mənfi cəhətlərini sadalayaraq insanları bu cür əməllərdən çəkindirməyə çalışmışdır.

Qərəz ki, qələtdir bir mərdi-köhnə,
Gedib meyl eyləyə cahilə zənə.
Onun təmənnası onda dözülməz,
Şamü-səhər qiylü-qalı üzülməz,
Sevgi-sevgisinə bərabər gərək (11, s.130).

Qasım bəy Zakirin qənaətincə, ailə, evlilik məsələləri qarşılıqlı məhəbbət, ünsiyyət, bərabərlik əsasında qurulmalıdır. Bu evlilikdə insanları yaş, düşüncə, zövq baxımından biri-birinə bağlayan məqamlara diqqət yetirilməlidir. Buna görə də şair özlərinin şəxsi istəklərini təmin etmək xatirinə azyaşlı qızlarla evlənən qocaları kəskin şəkildə ittiham etməkdən çəkinmir.

Ailə, evlilik və qarşılıqlı məhəbbət məsələsi Zakirin «Zövci-axər» hekayəsində də bir qədər başqa səpkidə qaldırılmışdır. Nağılvari üslubda qələmə alınmış bu hekayədə müəllif yaşadığı muhitdə qarşılaşdığı ən adi hadisələrə istinad etmiş, cəmiyyəti narahat edən bu problemə öz münasibətini bildirmişdir. Mənzum hekayədə şair «zövci-axər» məsələsininin tənqidi qoysa da, əsərin ideya istiqamətini bununla məhdudlaşdırmaq olmaz. Çünki burada əsas etibarilə qarşılıqlı sevgi məsələsi bədii təcəssümünü tapmışdır. Şairin qənaətincə, ailə məsələsinin təməlində qarşılıqlı sevgi və hörmət dayanmalıdır. Bunlar olmadığı təqdirdə yalnız pula, var-dövlətə söykənərək xoşbəxt ailə qurmaq mümkün deyildir.

Qasım bəy Zakir İsfahan şəhərindən olan kasıb bir pinəçi və tacir qızının timsalında ailədə qarşılıqlı sevginin hər şeydən üstün olduğuna diqqəti çəkir. Müəllif həmçinin təqdim etdiyi tacir obrazı vasitəsilə varı, dövləti insan həyatından üstün tutan acgöz insanların ümumiləşdirilmiş surətini yaratmaqla ona öz nifrətini bildirmişdir. Şairin qəaətincə, qarşılıqlı sevgini, təmiz məhəbbəti heç bir var-dövlət, sərvət, mal-mülk əvəz edə bilməz. Çünki maddiyyat üzərində qurulan münasibətlər uzun müddət davam gətirməyəcəkdir.

Zakirin «Məlikzadə və Şahsənəm», «Aşiqin təam bişirməyi», «Əmirzadə və aşiq» və digər hekayələrində pak, təmiz sevgi, qarşılıqlı məhəbbət məsələləri ilə yanaşı, eyni zamanda mənəvi-əxlaqi keyfiyyətlər də əsas problemlərdən biri kimi diqqət mərkəzinə çəkilmişdir. Bu hekayələrin romantik səpkidə qələmə alınmasının təsvir olunan hadisələrin məna və məzmununa, əsərin dil və üslubuna təsir göstərdiyi də qeyd olunmalıdır.

«Məlikzadə və Şahsənəm» hekayəsində müəllif Məhəmməd Füzulinin məşhur «Leyli və Məcnun» poemasının qəhrəmanları tipində yaratdığı romantik obrazların timsalında ilahi sevginin hər şeydən yüksəkdə dayanması etiqadına tapınmışdır. Qeyd edək ki, bəhs olunan mənzum hekayədə Füzulinin təsiri aşkar şəkildə duyulmaqdadır.

Əcüzeyi-eşqin çoxdur üsuli,
Bu barədə həq deyibdir Füzuli:
«Can vermə qəmi-eşqə ki, eşq afti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır» (11, s. 151).

«Tərlanlar və elçilər» hekayəsində Qasım bəy Zakir bir qədər əvvəlki dövrün hadisələri fonunda yaşadığı cəmiyyətin ədalətsizliklərinə, haqsızlıqlarına özünün sərt etirazını bildirir. Müəllifin qənaətincə, məmləkətə ağalıq edənlər, onun sahibi məqamında olanlar başı boş, fərsiz, qanmaz və ağılsızdırlar. Ölkədə bütün mühüm vəzifələr cahil adamlara tapşırılmışdır. Elə buna görə də məmləkətdə haqsızlıq ayaq tutub yeriyir, cəhalət, nadanlıq baş alıb gedir. Mənzum hekayənin sonunda şair nəsihətamiz şəkildə öz qənaətlərini ümumiləşdirir:

Çox nəf hasildir bu hekayətdən,
Guş edən ayılar xabi-qəflətdən.
Təhəmmül etməsə padişah əgər,
Peşimanlıq əlin dizinə dögər.

Əvvəl imtəhandır, sonra fərmayiş,
Yerinə qayıtmaz çünki düşdü diş (11, s.155-156).

Göründüyü kimi, mənzum hekayənin əvvəlində qaldırılan ictmai məsələlərlə finaldakı nəsihətamiz ruh biri-birini tamamlamır və bütövlükdə əsərin ideya istiqamətini zəiflədir.

Qasım bəy Zakirin mənzum hekayələri dərin məzmuna malik, ibrətamiz ruhlu, müdrik kəlamlarla müşayiət olunan əsərlərdir. Şair bu tipli əsərləri ilə bir tərəfdən yaşadığı cəmiyyətdə qarşılaşdığı eybəcərlikləri kəskin şəkildə tənqid hədəfinə çevirmiş, eyni zamanda, təsvir olunan hadisə və əhvalatların mahiyyətindən doğan müdrikanə fikir və qənaətlərini ifadə etmişdir. Məhz bu səbəbdəndir ki, şairin mənzum hekayələri «ictimai tərbiyə vasitəsi kimi gənc nəslin əxlaqına, davranışına, dünyagörüşünə müsbət təsir göstərir, bədii-estetik zövq mənbəyi kimi gənclərdə yüksək mənəvi-əxlaqi keyfiyyətləri aşılayır» (10, s.168).

Bütövlükdə, Qasım bəy Zakirin mənzum hekayələri XIX əsr Qarabağ ədəbi mühitində bu janrın ən dəyərli, təkrarsız bədii örnəkləri kimi maraq doğurmaqdadır. Azərbaycan poeziyasının sonrakı mərhələlərində mənzum məktublara təkrar-təkrar müraciət olunmasında, bu janrın çeviklik qazanmasında Qasım bəy Zakirin xidmətləri təqdir olunmalıdır.

**Qasım bəy Zakirin satiraları**

Şübhəsiz ki, Qarabağda satirik poeziyanın inkişafı və xüsusi bir istiqamət kəsb etməsi daha çox XIX yüzilin ən qüdrətli realist sənətkarlarından biri olan Qasım bəy Zakirin adı ilə bağlıdır. Onun zəngin və çoxcəhətli yaradıcılığının mühüm bir qolunu məhz satira təşkil etmişdir. XIX əsrin böyük Azərbaycan mütəfəkkiri, görkəmli dramaturq Mirzə Fətəli Axundov Qasım bəy Zakirin yaradıcılığını yüksək qiymətləndirmişdir: «Amma mən əyyami-səyahətimdə səfheyi-Qarabağda Molla Pənah Vaqifin bir para xəyalatını gördüm ki, zikr etdiyim şərt bir növ ilə onda göründü və dəxi Qasım bəy Sarıcaluyi Cavanşirə düçar oldum ki, əhli türk dilində onun mənzumatı mənim heyrətimə bais oldu. Ondan ötrü ki, dediyim şərt ziyadə onun mənzumatında tapıldı. Mənim əqidəmə görə, tarixi-hicridən indiyədək türk arasında şeir münhəsirdir bu iki şəxsə» (1, s. 221).

Filologiya elmləri doktoru, professor Kamran Məmmədov Qasım bəy Zakirin «Seçilmiş əsərləri»nə yazdığı müqəddimədə şairin satiralarını təhlil edərək qənaətlərini aşağıdakı şəkildə ümumiləşdirir: «Zakirin satiraları Azərbaycan ədəbiyyatında realizmin formalaşması və inkişafında mühüm rol oynamışdır. Zəngin məzmuna malik satiralarında şair Azərbaycan həyatını geniş lövhələrdə əks etdirmiş, dövrün mühüm ictimai-siyasi məsələlərini, tipik cəhətlərini ümumiləşdirmiş, feodal üsuli-idarəsinin nöqsanlarını açıb-göstərmişdir. Zakirin satirik əsərləri bədii forma və sənətkarlıq cəhətcə də kamil sənət nümunələridir» (11, s. 9). Şübhəsiz ki, ədəbiyyatşünas Kamran Məmmədovun elmi mülahizələri ilə razılaşmamaq mümkün deyildir. Çünki bu mülahizələrdə Qasım bəy Zakirin satira yaradıcılığı istər məzmun, istərsə də problem baxımından obyektiv şəkildə dəyərləndirilmişdir. Tədqiqatçının qənaət və mülahizələrində diqqəti çəkən məqamlardan biri də şairin satiralarının sənətkarlıq kontekstində dəyərləndirilməsidir.

Qeyd edək ki, Azərbaycan poeziyasında cəmiyyət həyatının tənqidi, müşahidə olunan ictimai qüsur və nöqsanların ifşası bütün zamanlarda bu və ya digər formada özünü göstərmişdir. Lakin Qasım bəy Zakirə qədər milli poeziyada ictimai problemlərin sistemli şəkildə ifşasına təsadüf olunmur. Görkəmli ədəbiyyatşünas Salman Mümtaz bu məqama diqqəti cəlb edərək yazır: «Zakirdən əvvəl elin və xalqın dərdlərindən sözgəlişi qəbilindən olaraq üstüörtülü surətdə bir və ya iki beyt yazan tək-tük şairlərimiz olmuşsa da, Zakir kimi cəsarətli, hər bir sinfin eybini, suçunu apacıq üzünə çırpıb xəyanət və cinayətin də tamamilə gözlərinin içinə söyləyəni olmamışdır. Seyid, molla, qazı, təbib, darğa, tacir, bəy, mülkədar, murov, naçalnik, bəyzadə, xanzadə, xan, xülasə, o vaxtın bütün qüvvətli, nüfuzlu və zəbərdəst adamları Zakirin dəhşətli şeirləri sayəsində mümkün qədər tədib olunmuşlar» (5, s.111). Şübhəsiz ki,

görkəmli ədəbiyyatşünas Salman Mümtazın bu qənaətlərilə razılaşmamaq mümkün deyildir. Doğrudan da, Zakirin satirası özünəqədərki poeziyadan cəsarətinə, kəskinliyinə görə diqqəti çəkir.

Filologiya elmləri doktoru Zaman Əsgərlinin qənaətincə, «Zakir satirasında sosial bəlalar, yerli hakimlərin zülmü, çarizmin idarə və məhkəmələrində olan sürundürmələr, ölkəni bürüyən rüşvətxorluq, haqsızlıq cəsarətlə tənqid olunur. Şair çar məhkəmələrində işləyən məmurların çirkin mənəvi aləmini açır, onların büsbütün humanist hislərdən məhrum yalançılar, «həşəratlar» olduğunu yazırdı» (7, s.21).

Qasım bəy Zakirin Mirzə Fətəli Axundova ünvanladığı «Vilayətin məğşuşluğu haqqında» mənzum məktubu yalnız bəhs olunan dövrdə Qarabağ ədəbi mühitində deyil, bütövlükdə XIX yüzil poeziyasında yaranmış satiranın ən mükəmməl örnəklərindən biridir.

Xəbər alsan bu vilanın əhvalın,
Bir özgədir keyfiyyəti-Qarabağ.

Həqdi, bundan əqdəm görübsən sən də,
Hanı o qaidə, o qanun sayaq? (11, s. 21).

Satiranın sonrakı misraları dövrün, mühitin kəskin, sərt ittihamları ilə müşayiət olunmaqdadır:

Qarabağda nə day qaldı, nə dana,
Bu gün, sabah qaçar hərə bir yana.
Tənbeh etmək ilə Xındırıstana,
Xub saldı nizamə ölkəni qoçaq (11, s. 22).

Qasım bəy Zakirin «Vilayətin məğşuşluğu haqqında» satirasında o dövrdə Qarabağdakı hakim təbəqənin daxili-mənəvi simasının eybəcərlikləri məharətlə açılıb göstərilmişdir.

Görsən tanımazsan Yarımsaqqalı,
Çıxıb əndazədən dövlətü-malı;
Xandəmirov çaldı, çapdı mahalı,
O ki, tutub özün keçəl qurumsaq (11, s. 22).

Qasım bəy Zakirin İsmayıl bəy Qutqaşınlıya müraciətlə yazdığı «Bu əhldən mehribanlıq görmədim» adlı satirası da dövrün, mühitin eybəcərliklərini real, inandırıcı cizgilərlə əks etdirən poetik örnəklərdən biridir:

Qarabağ əşxası yeksər yağıdır,
Əvvəldən axıra zülm ocağıdır;
Bir gecədə canavarlar dağıdır,
Olmasa kəlləyə çobandan mədəd (11, s. 39).

Qasım bəy Zakirin «Çıxmadı qurtulaq dərdü-bəladan» adlı satirasında rus müstəmləkəçilik rejiminin Azərbaycana gətirdiyi qanunsuzluq, özbaşınalıq, dərəbəylik və s. kimi nöqsanlar kəskin şəkildə ifşa olunmuşdur.

Çıxmadı qurtulaq dərdü-bəladan,
Gündə bir zakonu görən canımız!

Hər ayın başında bir yol dəgşilən,
Adəti qanuni görən canımız (11, s.43).

Şair, eyni zamanda, rus müstəmləkəçilərinin əlaltısı olan yerli bəy və xanları, din adından istifadə edən «laməzhəb» müsəlmanları da satirik şeirin hədəfinə çevirmişdir:

Bu zülmü insana eyləməz ihsan,
Saf cana yetişdik aman, əlaman!
Bir neçə laməzhəb, adı müsəlman,
Mürtədü-məlunu görən canımız (11, s.45).

Təhlillərdən aşkar şəkildə göründüyü kimi, Qasim bəy Zakirin satira, yumor və həcvlərində Çar Rusiyasının müstəmləkəçilik siyasətinin Azərbaycana və bütövlükdə Qafqaz regionuna gətirmiş olduğu bürokratiya, süründürməçilik, anarxiya, rüşvətxorluq, özbaşınalıq sərt şəkildə tənqid atəşinə tutulur. Şairin bu səpkili əsərlərində doğma xalqına arxa çevirərək rus müstəmləkəçilik rejiminə xidmət edən Cəfərqulu xan Nəva, Əmiraslan bəy, Mehdi bəy Kəbirli, Hüseyn bəy, Knyaz Xasay kimi bəylər və mülkədarlar, Qarabağın hakimləri Xandəmirov, knyaz Konstantin Tarxan-Mauravov və başqaları kəskin şəkildə ifşa olunmuşlar. Ümumiyyətlə, qeyd olunmalıdır ki, Qasım bəy Zakirin satiralarında «...cəmiyyətin və «mən»in (fərdin) tərcümeyi-halı birləşir. Bu mənada onun ən yaxşı şeirləri sözün hər iki (həm geniş, həm də dar) mənasında avtobioqrafiq şeirlərdir. Mənəvi gerçəkliyin az qala natural axarı, məişətin ictimai mozaikası bu şeirin bədii ab-havasını, stixiyasını təşkil edir» (8, s.238).

Qasım bəy Zakirin satirik şeirlərinin mühüm bir qismi həcvlərdən ibarətdir. Şairin «Təbibləri həcv», «Şuşa mollaları haqqında», «Knyaz Xasay Usmiyev haqqında həcv», «Divanbəyiləri həcv», «Var özgə vilayətdə də tək-tək köpəy oğlu» və bir çox digər şeirləri məhz həcv kimi qələmə alınmışdır. Şairin həcvlərində bəzən ədəbsiz söz və ifadələrə təsadüf olunsa da, bütövlükdə bu əsərlər yüksək peşəkarlıqla qələmə alınmış, janrın kamil örnəkləri kimi dəyərləndirilə bilər. Həmçinin onu da vurğulamaq lazımdır ki, müəllif həcvlərinin bir qismini məktub şəklində qələmə almışdır.

«Qasım bəy Zakirin satiraları ədəbiyyatımızda realizmin qüvvətlənməsinə və ictimai məzmun kəsb etməsinə böyük töhfələr verdi, satirik şeirimizin gələcək inkişafına əsaslı zəmin hazırladı» (2, s.333). Şübhəsiz ki, bu qənaətlərlə razılaş-mamaq mümkün deyildir. Doğrudan da, Azərbaycan poeziyasının sonrakı mərhələsində satirik təmayülün inkişafında Qasım bəy Zakirin yaradıcılığı mühüm rol oynamışdır.

Qasım bəy Zakirin satiraları üçün səciyyəvi olan cəhətlərdən biri də onların real həyatdan, cəmiyyətin mövcud problemlərindən qaynaqlanmasıdır. Bu mənada filologiya elmləri doktoru, professor Qara Namazovun Qasım bəy Zakirin satirik əsərlərini «Qarabağın həyat salnaməsi» (6, s. 84) kimi səciyyələndirməsi olduqca inandırıcıdır. Həqiqətən də, şair satirik səpkidə qələmə aldığı məktubları, həcvləri və satiraları ilə öz dövrünün və mühitinin canlı mənzərəsini yaratmışdır.

Onu da qeyd etmək lazımdır ki, Qasım bəy Zakirin satiralarında cəmiyyətin ciddi sosial-siyasi problemlərinə toxunulmur, millətin düşdüyü fəlakətlərin köklü səbəbləri aşkarlanmırdı. Lakin bununla belə şairin yazılarında xalqın faciəsinin səbəblərinin «sahibi-ixtiyar»da olduğu dönə-dönə vurğulanırdı.

## Nəticə

Təhlillərdən göründüyü kimi, Qasım bəy Zakirin mənzum hekayə və satiraları XIX əsr Qarabağ ədəbi mühitinin inkişafında, poeziyanın məzmun və forma baxımından zənginləş-məsində əhəmiyyətli rol oynamışdır.

Ədibin məhəbbət mövzusunda yazdığı «Məlikzadə və Şahsənəm», «Əmirzadə, məşuq və

cavan aşıq», «Aşiqin təam bişirməyi», «Aşiq və məşuq haqqında», «Zövci-axər», əxlaqi və tərbiyəvi mövzuda qələmə aldığı «Tərlanlar və elçilər», «Dəvəsi itən kəs», satirik-tərbiyəvi mahiyyət daşıyan «Dərviş ilə qız», «Həyasız dərviş», «Əxlaqsız qazı», «Bihəya türk», «Xalqa vəz deyən, özü fisqü-fücurdan çıxan biəməl alim» kimi mənzum hekayələri Qarabağ ədəbi mühitində ekik poeziyanın formalaşmasına ciddi təsir göstərmişdir.

Qasim bəy Zakirin satira, yumor və həcvlərində Çar Rusiyasının müstəmləkəçilik siyasətinin Azərbaycana gətirmiş olduğu bürokratiya, süründürməçilik, anarxiya, rüşvətxorluq, özbaşınalıq sərt şəkildə tənqid atəşinə tutulur. Şairin Mirzə Fətəli Axundova ünvanladığı «Vilayətin məğşuşluğu haqqında» məktubu, İsmayıl bəy Qutqaşınlıya müraciətlə yazdığı «Bu əhldən mehribanlıq görmədim» adlı mənzuməsi, «Çıxmadı qurtulaq dərdü-bəladan» satirası, habelə «Təbibləri həcv», «Şuşa mollaları haqqında», «Knyaz Xasay Usmiyev haqqında həcv», «Divanbəyiləri həcv», «Var özgə vilayətdə də tək-tək köpəy oğlu» və bir çox digər həcvləri bəhs olunan dövrdə realist-satirik poeziyanın dəyərləri örnəkləri sırasında yer tutmaqdadır.

## Ədəbiyyat

1.Axundov Mirzə Fətəli. Əsərləri, Üç cilddə, II cild, Bakı: «Elm» nəşriyyatı,1988, 385 səh.
2.Azərbaycan etnoqrafiyası. Üç cilddə, III cild, Bakı, «Şərq-Qərb» nəşriyyatı, 2007, 568 səh.
3.Xəlilov Qulu. Həyat və idrak, Bakı: «Yazıçı» nəşriyyatı, 1980, 361 səh.
4.Qasımzadə Feyzulla. XIX əsr Azərbaycan ədəbiyyatı, Bakı: «Maarif» nəşriyyatı, 1974, 488 səh.
5.Mümtaz Salman. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı: «Yazıçı» nəşriyyatı, 1986, 445 səh.
6.Namazov Qara. Azərbaycan uşaq ədəbiyyatı, Bakı: Bakı Universiteti nəşriyyatı, 2007, 444 səh.
7.XIX əsr Azərbaycan şeiri antologiyası. Tərtib edəni və ön sözün müəllifi Zaman Əsgərli, Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2005, 424 səh.
8.Rüstəmova Azadə. Nəbiyev Bəkir. Qarayev Yaşar. Azərbaycan ədəbiyyatı, Bakı: «Elm» nəşriyyatı, 2003, 376 səh.
9.Rzayev Yaşar. XIX əsr Azərbaycan ədəbiyyatı, Bakı: «Elm və təhsil» nəşriyyatı, 2019, 220 səh.
10.Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi, Bakı: «Ünsiyyət» nəşriyyatı, 2000, 516 səh.
11.Zakir Qasım bəy. Seçilmiş əsərləri, Bakı: «Avrasiya-Press» nəşriyyatı, 2005, 400 səh.

**Zenfira Aslan**

## Creative activity of Gasim bay Zakir and literary environment of Garabagh

Summary

In the article one of the eminent representatives of XIX century Azerbaijani literature, Gasim bey Zakir's literary heritage has been to the object of research in the context of epic poetry and satirical poems which is typical for his creative activity.

The satire of Gasim bey Zakir played an important role in the development of the literary environment of the XIX century Karabakh, the enrichment of poetry in content and form.

In his stories expressed in verse he continued and developed the best traditions of the Azerbaijani poets as Afzaladdin Khagani, Nizami Ganjavi, Maraghali Ovhedi, Mahammad Amani and others.

Including it has been emphasized that Gasim bey Zakir was influenced by the Eastern classics including from Indian "Kalila and Dimna".

Here the Gasim bey Zakir's stories expressed in verse have been classified from subject view point and have been researched in this context.

In the article Gasim bey Zakir's services in the development of satirical poetry characterized, the role of his works in the strengthening of realism principles in the literary, in the daily life.

In the article, the poet's creativity was not isolated, but in the context of his literary environment, he was analyzed in a comparable context with other artists.

The most important scientific and theoretical sources on the subject have been cited in the research process.

**Key words:** Gasim bey Zakir, Qarabagh, literary environment, satire, epic poetry

**Зенфира Аслан**

**Творческая деятельность Гасым бека Закира**
**и литературная среда Карабаха**

В статье одного из выдающихся представителей азербайджанской литературы XIX века литературное наследие Гасым бека Закира стало объектом исследований в контексте эпической поэзии и сатирических стихов, характерных для его творческой деятельности.

В целом сатиры Гасым бека Закира сыграли важную роль в развитии литературной среды Карабаха XIX века, обогащении поэзии по содержанию и форме.

В своих рассказах, выраженных в стихах, он продолжил и развил лучшие традиции азербайджанских поэтов, таких как Афзаладдин Хагани, Низами Гянджеви, Марагали Овхеди, Мухаммед Амани и других.

Было подчеркнуто, что на Гасым бека Закира оказали влияние восточные классики, в том числе из индийской «Калила и Димна».

Здесь рассказы Гасим бека Закира, выраженные в стихах, были классифицированы с предметной точки зрения и исследовались в этом контексте.

В статье Гасым бека Закира по развитию сатирической поэзии охарактеризована роль его произведений в укреплении принципов реализма в литературе, в повседневной жизни.

В статье творчество поэта не было изолированным, но в контексте его литературной среды он был проанализирован в сопоставимом контексте с другими художниками.

Наиболее важные научные и теоретические источники по этой теме были приведены в процессе исследования.

**Ключевые слова:** Гасым бек Закир, Карабах, литературная среда, сатира, эпическая поэзия

Redaksiyaya daxil olma tarixi: 12.04.2019
Çapa qəbul olunma tarixi: 08.05.2019
**Filologiya elmləri doktoru, professor** Sənan İbrahimov tərəfindən çapa tövsiyə olunmuşdur.